**AYGÜN ƏHMƏDOVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Üzeyir Hacıbəyov 119**
**aygun_434@hotmail.com**

# SÜLEYMAN SANİ AXUNDOV YARADICILIĞINDA TƏBİƏT TƏSVİRLƏRİ

Süleyman Sani Axundov XX əsr realist Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələri ilə bağlı olan bir yazıçıdır. S.S.Axundov yaradıcılığında "təbiət təsvirləri" heyrətamiz xarakterə malik bir bacarıqdır. Bu təsvirlərə biz yazıçının "Qorxulu nağıllar" silsiləsində geniş həcmdə rast gəlirik.

S.S.Axundov "Uşaqlıq həyatımdan xatirələr" adlı memuarında yazır: "Mən gözlərimi açanda özümü bu zəngin təbiət içində gördüm".

S.S.Axundovun "Qorxulu nağıllar" silsilə kitabındakı təbiət təsvirlərindən sonra yazdığı "Quzu" hekayəsi olmuşdur. Gözəl təbiət təsvirlərilə başlanan bu hekayə yazıçının uşaq vaxtı başına gələn hadisələrlə təsvir olunur.

Təbiətdə baş verən hadisələri maraqlı bir şəkildə təsvir edən yazıçı qış fəslinin gözəlliklərini məharətlə oxucularına çatdırır.

Məsələn, qış fəslində damlardan sallanan buz nidalarını, bacalardan çıxan tüstünü ağ qarın kölgəsinə, qar dənələrinin ağacların budaqlarında məskən salmasını maraqlı bir tərzdə qələmə almışdır.

Təbiəti sevmək vətəni sevmək deməkdir. İftixar hissilə demək lazımdır ki, bu keyfiyyət insanın şüurlu fəaliyyəti ilə bağlıdır. Təbiəti duymaq, dərk etmək onu yaşamaq, həyat hadisələri ilə üzləşmək deməkdir.

***Açar sözlər:*** *buz nidası, monumental, orjinal, tədqiq, sönükçülük, idrak, inkar, yırtıq, çürüklüyünü, məşəqqət*

Süleyman Sani Axundov XX əsr realist Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələri ilə bağlı olan bir yazıçıdır (1, s.236). Əsərlərində yaşadığı həyatın bədii təsvirini müəyyən təəssüratlarla şərh edən yazıçı, uşaqların acınacaqlı vəziyyətində baş verən böyük insan tələfatının tarixi və siyasi əhəmiyyətini açıqlayır, hadisələrin xüsusiyyətlərini geniş ölçüdə ifadə edərək, köhnə dünyanın çürüklüyünü bədii şəkildə göstərir.

S.S.Axundov yaradıcılığının «təbiət təsvirləri» heyrətamiz xarakterə malik bir bacarıqdır. Bu təsvirlərə yazıçının «Qorxulu nağıllar» silsiləsində geniş həcmdə rast gəlinir.

Mayn Rid tərəfindən 1865-ci ildə yazılmış «Başsız atlı» romanında təbiət personajları maraqlı bir təsvirlərlə oxucunun diqqətini özünə cəlb etmişdir.

İstər Mayn Rid, istərsə də S.S.Axundov yaradıcılığında vəsf olunan təbiət təsvirləri məna və təsvir baxımından heç bir yazıçının əsərində bu qədər monumental zirvəni fəht etməmişdir.

S.S.Axundovun ədəbi yaradıcılığının mühüm bir sahəsi təbiət mövzusunda yazılan əsərlərdir. Təbiət mövzusunda ərsəyə gələn real təbiət mənzərələri, uşaq nəsrinin əsas xüsusiyyətlərindəndir.Təkcə Azərbaycan uşaq ədəbiyyatında deyil, «Dünya uşaq ədəbiyyatı»nda da təbiət təsvirləri orijinal tələblər əsasında kiçik oxucularımıza təqdim olunur. Bu orijinallıq Azərbaycan uşaq nəsrinin inkişafıdır. Müasir tələblərə uyğun yazılan, sevilə-sevilə oxunan əsərlərin tədqiq və tərənnümü uşaq ədəbiyyatında öz maraqlı məzmunu ilə oxucularının qəlbində yerini tapmışdır.Təbiət mövzusunda yazılan əsərlər klassik ədəbiyyatda əsrlər boyu aparıcı mövzu olmuşdur. Bu əsərlərdə təsvir olunan rəngarənglik həmişə təzə və canlı görünür. Bu cəhət S.S.Axundovun əsərlərində özünü göstərən motivlərdir. Böyük ədibin

yaradıcılığında təbiət təsvirləri maraqlı bir şəkildə öz əksini tapmışdır. Ədib arzu və istəklərini, elmi və tarixi düşüncələrini bədii şəkildə müxtəlif yollarla oxucusuna çatdırır. Daha maraqlısı odur ki, yazıçı xalq ədəbiyyatı motivlərində təbiət təsvirlərini yaradıcı şəkildə şərh edir.

S.S.Axundovun təbiət motivlərinə munasibəti, insan tərbiyəsi üçün vacib olan nəsihətamiz fikirləri, yaradıcılığının əsasını təşkil edir. S.S.Axundovun əsərlərindən bəhrələnən yüzlərcə yazarlarımız ədəbiyyata təbiət mövzusunda maraqlı və cazibəli təhriflər gətirmişlər.

Təbiəti sevmək vətəni sevmək deməkdir. İftixar hissilə demək lazımdır ki, bu keyfiyyət insanın şüurlu fəaliyyəti ilə bağlıdır. Təbiəti duyub dərk etmək, onu yaşamaq həyat hadisələri ilə üzləşmək deməkdir. Poetik təfəkkürün məhsulu sayılan təbiət mövzusunda yazılan əsərlərin məziyyəti ondan ibarətdir ki, burada sönükçülük təkrarolunmazdır. Oxuculara çatdırılan axıcı ifadələr S.S.Axundovun yaradıcı təfəkkür və hissləriIə qaynayıb qarışır, uzun bir vəhdət təşkil edir. Təbiət mövzusunda yazılan əsərlərdə bəşəri mövzular inkar edilmir. Əksinə, təbiətə xas olan bütün amillər fərdi şəkildə yüngül yaradıcılıq yolu ilə oxucuların sevimli əsərlərinə çevrilir.

Yazdığı əsərlərini özünün mənəvi dünyası sayan sevimli S.S.Axundov təbiət mövzusunda yazdığı rəngarənglik, yazıçının doğma Azərbaycanın fonunda qələmə aldığı əsərlər, təsvir və tərənnüm yaradıcılığının müasirlik idrakıdır. Buna görə də ölkəmizin təbiətini uzaqlara tanıtması ilə yadda qalan əsərlərə müraciət etməyimiz müasir nəsrin yaradıcılıq nümunəsidir.

Yaşadığı və böyüdüyü «Seyidli» kəndinin bağ-bağatını, şır-şır axan, göz yaşı kimi buz bulaqlarını, meyvəsini, ətirli çəmənlərinin qoxusunu, quşların səsini və təbiətdə baş verən dörd fəslin ahəngini müəllif elə gözəl təsvir etmişdir ki, oxucu bu əsəri oxuyarkən sanki özünü bu təbiətin qoynunda yaşadığını düşünür.S.S.Axundov «Uşaqlıq həyatımdan xatirələr» adlı memuarında iztirabla keçən uşaqlıq günlərini yad edərək yazırdı: «Mən gözlərimi açanda özümü bu zəngin təbiət içində gördüm. O, məni mərhəmətli qucağında yaşadarkən həyatın ağır, zəhərli hallarını, yetimlik, yoxsulluq məşəqqətini unutdururdu» (3, s.4).Beləliklə, ədibin yaşadığı mühit iki hissədən ibarət idi: «yoxsul həyat və zəngin təbiət». Uşaqlıq xatirələri onun geniş həyat yolunda ilk cığırdır ki, ədib onu ayaqyalın getmiş, torpağı hiss etmiş, başı üzərində açıq səmanı, gözü önündə isə təbiəti görmüşdür. Bu cığırla gedən zaman onun ayağına tikan batmış, qışın çovğunu əllərini üşütmüşdür. Lakin balaca Süleyman istiliyi və səadəti gözəl arzularda və təbiətin azad qoynunda tapmışdır. S.S.Axundov əsərlərinin əksəriyyətində təbiət təsvirlərinə xüsusi diqqət yetirən və gözəl personajlarla hekayələrinə parlaq rəng verən bəlkə də yeganə yazıçılardan biridir.

S.S.Axundovun öz hekayələri üçün «Qorxulu nağıllar» başlığını seçməsi də təsadüfü deyildir. «Nağıl» uşağın poetik xəyal və arzuları ilə reallığa bağlı olan utopik düşüncədirsə, «qorxu» sözü «zülmət səltənəti»nin sərt qanunlarına işarə idi. Bu da o demək idi ki, onların əməlləri və arzuları nağıl qədər şirin idi. Lakin yaşadıqları həyat isə onları daima qorxu altında saxlayırdı.

İllər keçsə də, S.S.Axundov yaradıcılığında «Qorxulu nağıllar» silsilə kitabında təsvir olunan təbiət təsvirləri hələ də qələm sahiblərinin maraq dairəsindədir. Oxşar məzmunlu nağılların hər birində yeni ideya, müxtəlif xarakterli obrazlar əsərlərin sujet xəttini təşkil edir. S.S.Axundovun təbiət motivlərinə munasibəti, insan tərbiyəsi üçün vacib olan nəsihətamiz fikirləri yaradıcılığının əsasını təşkil edir. Ədib, «Qaraca qız» hekayəsində, canlıların inkişafında və məhv olmasında insanların əməllərini göstərir. Hekayənin məzmunu və bədii məntiqi də diqqət mərkəzində durur.«Qaraca qız» hekayəsində «təbiət təsvirləri» bütün hekayəni əhatə edir. Hekayədə «təbiət təsvirləri» ilə «təbiət hadisələri» əsərin məzmununa maraqlı bir forma verir. Digər hekayələrində - «Abbas və Zeynəb», «Əhməd və Məleykə», «Nurəddin» kimi əsərlərində «təbiət hadisələri»nə rast gəlmirik. Lakin, təbiət hadisələrindən fərqli olaraq, yuxarıda adı çəkilən qəhrəmanların faciəsini yaradan insanların özləridir.

«Qaraca qız» hekayəsində «təbiət hadisələri» əsərin ilk səhifələrində özünü göstərir. Yazıçı zəlzələnin baş verdiyini, Qafqaz şəhərlərinin birində olduğunu söyləyir. Qış fəslində zəlzələnin baş verməsi, həm zəlzələ dəhşəti baxımından, həm də qışda olması baxımından insanlara ikiqat dəhşət yaşadır. Yazıq Qaraca qızın ata-anasının üstündə ağlamasına fikir verən yox idi. Köməyə gələnlər yerin altında qalan insanları çıxartmağın həyəcanını yaşayırdılar.

Zəlzələdən iki gün öncə bir dəstə qaraçı bu şəhərin ətrafında çadır qurmuşdular. Dəstənin içində Yasəmən adlı bir qaraçının Qaraca qıza yazığı gəlib onu çadırına apardı və böyük çətinliklər hesabına əri Yusifi Qaraca qızı yanlarında saxlamağa razı sala bildi.

Beləliklə Qaraca qız uzun bir müddət qaraçı dəstəsinin himayəsində qaldı. Qaraca qız bir müddət qaraçı dəstəsi ilə diyar-diyar gəzib, öz yetimliyinin acısını yaşamağa davam etdi.

Artıq yay fəsli öz isti qədəmlərini təbiətə bəxş etmişdir. İstidən heyvanlar və quşlar kölgə yeri və sərin su axtarışında idilər. Günorta vaxtı idi. Qaraca qız da çayda çimirdi. Çay dağ döşündən gəldiyinə görə xeyli iti və xırıltı ilə axırdı. Amma suyu az olduğundan iki arşın hündürlükdən tökülən şəlalənin altında çimməyin heç bir qorxusu yox idi. Birdən Yasəmənin qulağına sel gurultusunun səsi gəldi. Yasəmən Qaraca qızı nə qədər səsləsə də qız suyun səsindən Yasəmənin səsini eşitmirdi. Yasəmən çayın yuxarısından daşları və kolları yumalıya-yumalıya, gurultu və nəriltilə gələn seli görüb, var gücü ilə qışqırırdı. Sel həm Qaraca qızı, həm də Yasəməni ağuşuna alıb sağa-sola çırparaq hər ikisini yarımcan etdi.

Bütün bu hadisələr Qaraca qızın təkrar zillətinə bir qapı açdı. Bir tərəfdən zəlzələnin Qaraca qızın ata-anasının əlindən alması faciəsi, digər tərəfdən ona sahib çıxan talesiz Yasəmənin ölümü yazıq qızı sarsıtmışdır.Təbiət hadisələrinin amansız və xəbərsiz gəlişi aydın məsələdir. İnsanın isə amansız olması bağışlanmaz bir faciədir.

Amansız Yusifin əhliləşdirib pul qazanmaq məqsədilə oynatdığı ayını zəncirlə vəhşi kimi döyməsi, vəhşiləşmiş ayının zəncirini qırıb, sərxoş Yusifi parçalaması və meşədə baş verən sonrakı hadisələr Qaraca qızın son faciəsinə qısa bir yol açdı.

S.S.Axundov «Qorxulu nağıllar» silsiləsi memuarında «Təbiət təsvirləri» ilə birlikdə heyvanlar haqqında da oxucularını məlumatlandırmışdır. Qaraca qızın fərqli-fərqli heyvanları əhliləşdirmək bacarığına malik olması əsərdə oxucusu tərəfindən bu talehsiz qıza maraq və sevgi hissini bir az da artırır. Yazıçı eynicinsli heyvanlar haqqında uzun-uzadı danışmır, fərqli heyvanları oxucusunun qarşısına çıxarıb onlara böyük həyəcan yaşadır. Misal olaraq ağıllı Qara köpəyin işgüzarlığından, sahibinə sadiq olmasından, balaca pişik balasının acizliyindən, sahibi tərəfindən zəncirlə döyülüb vəhşiləşən ayıdan, Ağca xanımı zəhərli dişilə sancan ilandan söz açır: heyvanları və «təbiət hadisələri»ni, «təbiət təsvirləri»lə bir araya gətirir. Bu üç varlığı sevib-sevməməyi oxucularının ixtiyarına buraxır. Nağıllardakı mürəkkəbliyi düyünə salmır. Hadisələrin gedişinə diqqət edərək uzun-uzun cümlələrdən istifadə edərək, oxucusunu yormur.

«Qaraca qız» hekayəsində süjet xətti təbiət təsvirləri üzərində qurulur. Məişətlə bağlı bu hekayədə təsvir yox dərəcəsindədir.Yazıçının «Abbas və Zeynəb» hekayəsində də qəhrəmanlar uşaqlıq dünyasının gözəlliyini duymadan və böyümədən cəhalətin qurbanı olurlar. S.S.Axundov «Abbas və Zeynəb» hekayəsində zəhmət sevən, əməyə qiymət verən iki uşağın faciəsini yaratmışdır. Yazıçı Qayadibi kəndini belə təsvir edir: «Dan ulduzunun parlaq bir vaxtı idi. Bu kənd uca dağlarla əhatələnmiş bir çay qırağında, meşə kənarında salınmışdır. Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın dalından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmürdü. Amma şəfəqi qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından görünürdü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb cümlə yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda, çiçəklərin qönçələrində gizlənmiş pərvanələri və arıları oyatdı. Quşların cəh-cəhi havaya ucaldı. Bunların xoş avazları cütçünü şura gətirdi. O da ahəstə-ahəstə cütünü sürüb öz nəğməsini oxudu. Dağ döşündə sürüsünü otaran çoban da bayatı nəğməsini tütəyində ucaltdı. Günəş yavaş-yavaş qalxırdı. Onun qızıl şəfəqi getdikcə gümüş rənginə dönürdü. Meşənin gözəlliyi ədib tərəfindən belə qələmə alınmışdır: Meşənin gözəl və səfalı seyrəngahı var. Bu gözəllik yaşıl və tər otla, gözəl ətirli rəngli çiçəklərlə zinətləndirilmişdir. Rəngbərəng pərvanələr və arılar bu çiçəkdən o çiçəyə uçub, bahar günəşi ilə oynaşırdılar. Hər rəngə çalan cürbəcür cücülər otlara mərcan kimi sarılmışdır. Bir tərəfdən çiçəklərin qoxusu, bir tərəfdən quşların cəh-cəhi, bir tərəfdən də bulağın xoş mehi insanı bihuş edirdi. Seyrəngahın bir tərəfi qayaya dirənmişdir. Bu qayadan bir bulaq axıb şırıltı ilə aşağı tökülürdü. Suyun zərrələri havada günəşin şəfəqində almaz parçaları kimi parıldayırdı. Bu

«Şırlanbulaq» adı ilə məşhur idi. Bu çarqat kimi sərilmiş lalələr və çiçəklər ətrafa bir gözəllik verirdi»(2, s.219).Hekayənin sonunun faciə ilə bitdiyini S.S.Axundov sevərlər çox gözəl bilirlər. Gün bitdi, ay çıxdı. Nağıl olunan yerlərdən bir səs çıxmadı. Heyvanlar və quşlar insanların vəhşi hərəkətindən elə xofa düşmüşlər ki, hələ cürət edib yuvalarından çıxa bilmirdilər. Ay yavaş-yavaş qalxıb, qəmgin-qəmgin insanların tutduğu vəhşi əməllərə baxırdı.

«Nurəddin» hekayəsində təsvirlər, həm şəhər həyatından (məişət xarakterli təsvirlər) həm də kənd həyatından (təbiət təsvirləri) bəhs olunur.

«Piri baba» və «İmamverdi baba» obrazları S.S.Axundovun müsbət ideyalarını, xeyirxah fikirlərini təmsil edən, yazıçının adından danışan və məqsədlərini əsərlərində maraqlı bir şəkildə oxucularına təqdim edən xalq nümayəndələridirlər. «İmamverdi baba» və «Piri baba» obrazları hadisələrə qiymət verən nurlu insanlardır.«Qorxulu nağıllar» silsilə hekayələrində S.S.Axundov təbiətin qorunması üçün xeyirxah sifətlər axtarır və tapır da. «İmamverdi baba» və «Piri baba» obrazları, təbiətin gözəlliyinə gözəllik qatır, kiçik qəhrəmanlarına təbii varlığı sevdirməyi bacarır.Yazıçının «Qorxulu nağıllar» silsilə memuarından sonara yazdığı «Quzu» hekayəsində, qış fəslinin ecazkar tərifləri oxucusunu düşündürür. Hekayə faciə xarakteri daşımır. Bu hekayədə ədib öz uşaqlıq illərində başına gələn bir çox hadisələri, təbiətin dili ilə biz oxuculara səmimi etiraf yolu ilə çatdırır. Qış fəslində damlardan sallanan buz nidalarının, bacalardan çıxan qara tüstünün buz nidalarının rəngini pozmasından, , qar dənələrinin ağacların budaqlarında məskən salmasından, ayağında corabının birinin olub olmamasından, corab əvəzinə bir ayağına parca bağlamasından, yırtıq ayaqqabların qıyıqla tikilməyindən və nəhayat kiçik bir quzunu taparkən heyvanın qolunun əzildiyini görüb, ayağındakı parcanı çıxardaraq onun əzilmiş qoluna bağlanmasından, yığcam bir şəkildə əsərdə söz açılır.Bu hekayənin, digər adları çəkilən hekayələrdən fəqli cəhəti ondan ibarətdir ki, «Quzu» hekayəsinin baş qəhrəmanı Süleyman özüdür.S.S.Axundovun əsərlərindən bəhrələnən yüzlərcə yazarlarımız, ədəbiyyata təbiət mövzusunda maraqlı və cazibəli təhriflər gətirmişlər.(Misall olaraq A.Şaiqin «Köç» hekayəsi).

Təbiəti sevmək vətəni sevmək deməkdir. İftixar hissilə demək lazımdır ki, bu keyfiyyət insanın şüurlu fəaliyyəti ilə bağlıdır. Təbiəti duymaq, dərk etmək onu yaşamaq, həyat hadisələri ilə üzləşmək deməkdir. Poetik təfəkkürün məhsulu sayılan təbiət mövzusundakı əsərlərin məziyyəti ondan ibarətdir ki, burada sönükçülük təkrar olunmazdır. Oxuculara çatdırılan axıcı ifadələr S.S.Axundovun yaradıcı təfəkkür və hisslərilə qaynayıb qarışır, uzun bir vəhdət təşkil edir. Təbiət mövzusunda yazılan əsərlərdə, bəşəri mövzular inkar edilmir. Əksinə təbiətə xas olan bütün amillər fərdi şəkildə yüngül yaradıcılıq yolu ilə oxucularının sevimli əsərlərinə çevrilir.Yazdığı əsərlərini özünün mənəvi dünyası sayan sevimli S.S.Axundov təbiət mövzusunda yazdığı rəngarənglik, yazıçının doğma Azərbaycanın fonunda qələmə aldığı əsərlər, təsvir və tərənnüm yaradıcılığının müasirlik idrakıdır. Buna görə də ölkəmizin təbiətini uzaqlara tanıtması ilə yadda qalan əsərlərinə müraciət etməyimiz müasir nəsrin yaradıcılıq nümunəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı. “Maarif”. Bakı, 1982, 425 s.
2. Dünya uşaq ədəbiyyatı kitabxanası. S.S.Axundov «Abbas və Zeynəb». Bakı- 1985
3. *S.S.Axundov*. «Quzu» hekayəsi. Bakı-1954, 22 s.
4. *Məsud Vəliyev*. Bakı- 1956, s. 110


***А.С.Ахмедова***

## Природные Картины Творчества С.С.Ахундова

Сулейман Сани Ахундов – автор реалистической азербайджанской литературы XX века, который связан с прогрессивными традициями.В работах С.С.Ахундова «Природные рисунки» являются поразительным навыком. Мы сталкиваемся с широким

спектром «Сказки ужасов».С.С.Ахундов пишет в своих мемуарах «Мои детские воспоминания»: «Когда я открыл глаза, я увидел себя в этой богатой природе».Был рассказ «Quzu», написанный С.С.Ахундовым после натурных иллюстраций в сериале «Сказки ужасов». Эта история, начиная с прекрасных натурных иллюстраций, характеризуется событиями детства писателя.Писатель, который интересным образом описывает события в природе, умело доносит своим читателям. Например, зимой катание на коньках с крыш, дым из труб в белую тень и снежинки на ветвях деревев читателю интересным способом пояснить.Любить природу - значит любить свою родину. Надо сказать, что это качество связано с сознательной деятельностью человека. Слышать, понимать, жить. Любимым писателем С. Ахундова, произведениями которого он пишет свои произведения как духовный мир, является разнообразие произведений писателя на фоне искусства живописи и пения. Поэтому наше обращение к произведениям страны, напоминающее о природе нашей страны, является творческим примером современного искусства.

***Ключевые слова:*** *каток, монументальный, оригинал, разведка, сброс, познание, отрицание, надрыв, гнилостность, мытарство*

***A.S.Ahmedova***

**NATURAL PAINTINGS OF S.S.AKHUNDOV**
**Sammary**

Suleiman Sani Akhundov is the author of realistic Azerbaijani literature of the twentieth century. In the works of S. Akhundov, “natural drawings” are an amazing skill.These drawings come across in a series of letters of horror. S.Akhundov writes in his memoirs "My childhood memories": "When I opened my eyes, I saw myself in this rich nature." There was a story "Quzu", written by S. S Akhundov after full-scale illustrations in the series "Horror Tales".This story, starting with beautiful natural illustrations, is characterized by the events of the writer's childhood. A writer who describes events in nature in an interesting way, skillfully reads the winter chapter to his readers. Love of nature means loving your homeland. It should be said that this quality is related to the conscious activity of a person. To hear, to understand, to live is to live and to face life events. The essence of the works of nature, which is the product of poetic thinking, is that it is irrelevant here. The favorite writer S. Akhundov, whose works he wrote his works as a spiritual world, is the diversity of the writer's works on the background of the native Azerbaijan, the contemporary understanding of creativity of painting and singing. Therefore, our appeal to the works of the country, which has been reminiscent of the nature of our country, is a creative example of contemporary art.

For example, in winter skating from rooftops, smoke from pipes in a white shade and snowflakes on the branches of trees brought the reader.

***Keywords:*** *rink, monumental, original, intelligence, dumping, cognition, denial, torn, putrefaction, torment*

Redaksiyaya daxil olma tarixi: 07.05.2019
Çapa qəbul olunma tarixi: 08.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Pərixanım Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur